Azerbaijan Journal of Botany, 2023, 2(2): 9-12 DOI:10.30546/ajb.2023.2.2.03

# ŞƏRQİ ZƏNGƏZUR VƏ ƏTRAF ƏRAZİLƏRİN FLORASININ TƏFTİŞİ

P.X. Qaraxani*, Ş.N.Mirzəyeva, A.Y.Hüseynova
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Botanika İnstitutu, Badamdar yolu 40,
AZ1004, Bakı, Azərbaycan
E-mail: p.garakhani@mail.ru

Aparılmış tədqiqatlar zamanı Azərbaycan Respublikası Təhsil Nazirliyi Botanika İnstitutunun Herbari fondunda saxlanılan işğaldan əvvəlki tarixə aid herbari nüsxələri araşdırılmış, eyni zamanda işğaldan azad olan ərazilərdən toplanmış herbari nüsxələri ilə müqayisə edilmişdir. Bu nümunələr içərisində Azərbaycanın “Qırmızı kitabı”na daxil edilmiş nadir, endem, kritik həddə və yoxolma təhlükəsi altında olan növlər (*Zelkova carpinifolia* (Pall.) K.Koch, *Pyrus salicifolia* Pall., *Alcea sachsachanica* Iljin, *Tragopogon karjaginii* Kuth.) vardır ki, müqayisə zamanı bir çox növlərin məhv edildiyi tərəfimizdən müəyyən edilmişdir. Lakin *Crataegus orientalis* M.Bieb., *Platanus orientalis* L., *Datura stramonium* L., *Cuscuta campestris* Yunck, *Veronica anagallis-aquatica* L., *Lythrum salicaria* L., *Capparis spinosa* L. və s. kimi bir çox növlərə rast gəlinməkdədir.

**Açar sözlər:** antropogen təsirlər, biomüxtəliflik, flora, Kiçik Qafqaz, monitorinq

## GİRİŞ

Biomüxtəlifliyin öyrənilməsi və qorunması təbiət elmlərinin qarşısında duran əsas məsələlərdəndir. Müəyyən səbəblərdən biomüxtəlifliyin əsas tərkib hissəsi olan bitki örtüyünün mənfi təsirə məruz qalması və növ müxtəlifliyinin azalması ekosistemin inkişafına mane olur və onun fəaliyyətinin pozulmasına gətirib çıxarır [Mammadov, 2012; Ibrahimov, 2015]. Azərbaycanda ən zəngin biomüxtəlifliyə malik olan Kiçik Qafqaz təbii vilayətidir. Dünyada çox nadir və təkrarolunmaz iqlimə, bitki örtüyünə malik olan Qarabağ və Şərqi Zəngəzur da Kiçik Qafqaz təbii vilayətində yerləşir. Bu ərazilər təkcə Azərbaycanda deyil, bütövlükdə Qafqaz regionunda yeni növlərin yaranma mərkəzi hesab olunur. Şərqi Zəngəzur və onu əhatə edən Qarabağ ərazisi həm landşaft, həm də növ zənginliyi və müxtəlifliyi baxımından daha çox diqqətə layiqdir [Mammadov et al., 2012].

Uzun illər botaniklər bu ərazidə müxtəlif tədqiqatlar aparmış, ərazinin həm birillik, həm də çoxillik bitkilərlə zəngin olduğunu müəyyənləşdirmişlər [Flora of Azerbaijan, 1950-1962]. Floranın inkişafında təbii amillərin, eləcə də, antropogen təsirlərin mühüm rolu vardır. Məlum səbəblərdən bu ərazilər uzun müddət işğala məruz qalmışdır və işğalçılar tərəfindən təbiətə göstərilən təzyiqlər nəticəsində floranın çox hissəsi məhv edilmişdir (Şək. 1). Həmçinin



Şəkil 1. a) Zəngilan rayonuna gedən yol; b) Cəbrayıl rayonu, Süleymanlı kəndinin girişi; c) Zəngilan rayonu (*Gleditsia triacanthos* L.).

təbii ekosistemdə baş vermiş dəyişikliklər də bitki örtüyünün inkişafına mənfi təsir göstərmişdir. Bu baxımdan Şərqi Zəngəzur və Qarabağ ərazi florasının ilkin təftişinin aparılması, nadir və itmək üzrə olan növlərin lokalitetlərinin aşkarlanması, müasir vəziyyəti haqqında məlumatların toplanılması tədqiqat işinin məqsədi olaraq seçilmişdir.

## MATERİAL VƏ METODİKA

Tədqiqat işi 6-10 sentyabr 2022-ci il tarixlərində Azərbaycanın işğaldan azad edilmiş Füzuli (N 39°36′01″; E 47°08′35″), Cəbrayıl (N 39°24′00″; E 47°01′34″), Zəngilan (N 39°03′56″; E 47°41′48″), Qubadlı (N 39°20′45″; E 46°35′10″) ərazilərində çöl ekspedisiyaları, həmçinin AR ETN Botanika İnstitutunun Herbari fondunda olan materialların kameral şəraitdə araşdırılması yolu ilə icra edilmişdir. Tədqiqatın gedişində əsasən müqayisəli-morfoloji, sistematik [Flora of Azerbaijan, 1950-1962], ekoloji [Alekhin, 1950], coğrafi [Portenier, 2012] metodlardan istifadə olunmuşdur.

## NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ

Tədqiqat ərazilərinin bir sıra kəndlərində (Cəbrayıl rayonunun Süleymanlı, Quycaq, Horovlu, Füzuli rayonunun Horadiz, Zəngilan rayonun Ağalı və s.) floristik monitorinqlər aparılmışdır. Bu monitorinqlər az da olsa ərazinin bitkilər aləmini öyrənməyə əsas vermişdir. Monitorinqin nəticəsi olaraq *Cuscuta campestris* Yunck (Şək. 2a), *Cirsium arvense* (L.) Scop., *Epilobium hirsutum* L., *Convolvulus arvensis* L., *Achillea micrantha* Willd., *Robinia pseudoacacia* L., *Populus alba* L., *Celtis australis* subsp. *caucasica* (Willd.) C.C.Towns., *Salix alba* L., *Ficus carica* L., *Gleditsia triacanthos* L., *Tribulus terrestris* L., *Ailanthus altissima* (Mill.) Swingle, *Paliurus spina-cristi* Mill. kimi növlər hələ də işğaldan azad olmuş torpaqlarda rast gəlinir.

Nadir və nəsli kəsilmək təhlükəsində olan növlərdən *Platanus orientalis* L. (Şək. 2c), *Punica granatum* L., *Juniperus foetidissima* Willd., *Ficus carica* L. [The Red book of the Republic of Azerbaijan] və bu kimi bir çox növlər öz inkişafını davam etdirir. Monitorinq zamanı Cəbrayıl rayonunun Quycaq kəndi (dəniz səviyyəsindən 491 m hündürlükdə (N 40°87′90″; E 47°08′91″) ərazisində IUCN Qırmızı siyahısına Beynəlxalq qiymətləndirilməsi daha az təhlükəyə məruz qalan (LC) növ kimi daxil edilmiş *Bidens tripartita* L. (Şək. 2b) və *Lythrum salicaria* növlərinə rast gəlinmişdir [Ghafoor et al., 2021; https://www.iucnredlist.org/]. Burada *Capparis spinosa* növü dominantlıq edir.

Azərbaycanın Qırmızı kitabına salınmış nadir, endem, kritik həddə və yoxolma təhlükəsində olan növlər vardır ki, bunların əksəriyyəti məhv edilmişdir. Zəngilan dedikdə həmin anda Bəsitçay Dövlət Təbiət Qoruğu ərazisində təbii çinar meşəsi göz önünə gəlir. Çinarlıq qoruq ərazisinin 93,5%-ni təşkil edir [Ibrahimov, 2015], onun sahəsi 107 ha-a qədərdir [Mammadov et al., 2012]. Meşə ilə örtülü sahənin əsas ağac növlərində biri də Şərq çinarıdır [Mammadov et al., 2014]. Ekspedisiya




Şəkil 2 a) *Cuscuta campestris* Yunck; b) *Bidens tripartita* L.; c) *Platanus orientalis* L.

zamanı ağlımıza gələn ilk sual bu oldu ki, ərazidə çinarlar qalıbmı? Burada da eynilə Cəbrayıl rayonu ərazisində olduğu kimi bitkilərin məhv edildiyi, ağacların kəsildiyi və yandırıldığı mənzərə ilə qarşılaşdıq. Rayonun Süleymanlı kəndində bitkilər aləminin çox hissəsi məhv edilmiş, torpaq yandırılmışdır. Nadir incilərimizdən olan el arasında "Xan çinar" kimi tanınan Şərq çinarı (*Platanus orientalis* L.) növünün müəyyən bir hissəsi yandırılaraq məhv edilmişdir (Şək. 2c), məhdud sayda qalan fərdlərin isə inkişafı davam etməkdədir. Beləliklə, bütün işğal altında olan ərazilərimizdə biomüxtəliflik demək olar ki, tamamilə məhv edilmişdir.

Uzunmüddətli işğaldan sonra ilkin araşdırma xarakterli bu cür təftişlərin yaxın gələcəkdə Botanika İnstitutu əməkdaşları tərəfindən daha dərin və müfəssəl aparılacağına əminik. Qarşımızda duran əsas məsələlər: işğaldan azad olan ərazilərimizdə torpaqlarımızı dirçəltmək, yaşıllaşdırma sahəsində geniş layihələr həyata keçirmək, şəhərdaxili, yol kənarı, kənd və qəsəbələrdə yaşıllıq sahələri salmaq, yerli torpaq, iqlim şəraitinə uyğun ağac və kol bitkiləri əkmək, meşələr salmaqdır.

ƏDƏBİYYAT


Abstract of Flora of the Caucasus (2006-2012) St. Petersburg, Moscow; Vs. 1,2.3 (1-2), p. 338-349. [Конспект Флоры Кавказа (2006-2012) Санкт-Петербург, Москва; Т. 1, 2, 3 (1-2), с. 338-349].

Alekhin V.V. (1950) Geography of plants. M.: Uchpendiz, 419 p. [Алехин В.В. (1950) География растений. М.: Учпендиз, 419 с.].

Flora of Azerbaijan (1950-1962). Academy of Sciences of the Azerbaijan SSR. Baku, Vol.1-8. [Флора Азербайджана (1950-1962). АН Азерб.ССР. Баку, Т. 1-8].

Ghafoor A. & al. (2021). Flora of Pakistan 224: 1-310. Department of Botany, University of Karachi, Karachi.

https://www.iucnredlist.org/

Ibrahimov T. (2015) The reserves of Azerbaijan. Baku, 33 p. [İbrahimov T. (2015) Azərbaycanın qoruqları. Bakı, 33 s.].

Mammadov T., Isgander E., Talibov T. (2014). Rare tree and shrub plants of Azerbaijan, Baku: Elm, 380 p. [Məmmədov T., İsgəndər E., Talıbov T. (2014). Azərbaycanın nadir ağac və kol bitkiləri, Bakı: Elm, 380 s.].

Mammadov G., Yusifov E., Khalilov M., Karimov V. (2012) Azerbaijan: Ecotourism potential. Baku: Sharg-Garb, 359 p. [Məmmədov Q., Yusifov E., Xəlilov M., Kərimov V. (2012) Azərbaycan: Ekoturizm potensialı. Bakı: Şərq-Qərb, 359 s.].

Portenier N.N. (2012) Flora and botanical geography of the North Caucasus. Moscow, 293 p. [Портениер Н.Н. (2012) Флора и ботаническая география Северного Кавказа. Москва, 293 с.].

The Red Book of the Republic of Azerbaijan (2013) Rare and endangered plant and mushroom species. Second edition. Baku: 676 p. [Azərbaycan Respublikasının Qırmızı Kitabı (2013) Nadir və nəsli kəsilməkdə olan bitki və göbələk növləri. İkinci nəşr. Bakı: 676 s.].


## Ревизия флоры Восточного Зангезура и окружающих территорий


**П.Х. Гарахани, Ш.Н. Мирзаева, А.Ю Гусейнова**

Институт Ботаники, Министерство Науки и Образования, Бадамдарское шоссе 40, AZ1004, Баку, Азербайджан



Образцы гербарий, хранящиеся в Гербарном фонде Института Ботаники Министерства Образования Азербайджанской Республики, были исследованы и сравнены с образцами гербарий, собранными с территорий, освобожденные от оккупации. Среди этих образцов есть редкие, эндемичные, находящиеся под критической угрозой исчезновения и находящиеся под угрозой исчезновения виды, включенные в Красную книгу Азербайджана, а в ходе сравнения нами установлено, что многие виды уничтожены (*Zelkova carpinifolia* (Pall.) K.Koch, *Pyrus salicifolia* Pall., *Alcea sachsachanica* Iljin, *Tragopogon karjaginii* Kuth.). Однако такие виды как

*Crataegus orientalis* M.Bieb., *Platanus orientalis* L., *Datura stramonium* L., *Cuscuta campestris* Yunck, *Veronica anagallis-aquatica* L., *Lythrum salicaria* L., *Capparis spinosa* L. и др. распространены довольно широко.

**Ключевые слова:** антропогенное воздействие, биоразнообразие, флора, Малый Кавказ, мониторинг

## Inspection of the flora of Eastern Zangazur and surrounding areas

**P.Kh. Garakhani, Sh.N. Mirzayeva, A.Y. Huseynova**
Institute of Botany, Ministry of Science and Education, Badamdar highway 40, AZ1004, Baku, Azerbaijan

The herbarium specimens stored in the Herbarium fund of the Institute of Botany of the Ministry of Education, RA before the occupation were examined, and at the same time, they were compared with the herbarium specimens collected from the territories liberated from the occupation. Among these specimens, there are rare, endemic, critically endangered species (*Zelkova carpinifolia* (Pall.) K.Koch, *Pyrus salicifolia* Pall., *Alcea sachsachanica* Iljin, *Tragopogon karjaginii* Kuth.) included in the Red Book of Azerbaijan, and during the comparison, it was determined that many species were destroyed. However, many species like *Crataegus orientalis* M.Bieb., *Platanus orientalis* L., *Datura stramonium* L., *Cuscuta campestris* Yunck, *Veronica anagallis-aquatica* L., *Lythrum salicaria* L., *Capparis spinosa* L. and etc. are found.

**Keywords:** anthropogenic effects, biodiversity, flora, Lesser Caucasus, monitoring